

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 100 (23.262)

30 may 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Bakı Sərgi Mərkəzində XXVI Beynəlxalq "Xəzər Neft və Qaz-2019" sərgi və konfransının, həmçinin IX Xəzər Beynəlxalq energetika və alternativ enerji sərgisinin açılışında iştirak edib.

Dövlətimizin başçısı açılış mərasimində nitq söyləyib.

Sonra Prezident İlham Əliyev sərgi ilə tanış olub.

Dövlətimizin başçısı sərgi və konfransın xatirə kitabını imzalayıb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Amerika Birləşmiş Ştatları Dövlət Departamentinin Enerji Ehtiyatları Bürosunda ABŞ-ın Dövlət katibi köməkçisinin birinci müavini Kent Loqsdonun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 29-da Avropa Futbol Assosiasiyaları Birliyinin (UEFA) prezidenti Aleksandr Çeferinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.




## Bolqarıstan rəsmiləri Naxçıvanla bağlı fotosərgiyə baxıblar

28 May – Respublika Günü, Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illik yubileyi və Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü münasibətilə Sofiya şəhərinin nüfuzlu məkanlarından "Sofiya Balkan" oteldə Azərbaycan Respublikasının Bolqarıstan Respublikasındakı Səfirliyi tərəfindən rəsmi qəbul təşkil olunub. Bolqarıstan Respublikasının vitse-prezidenti və hökumət nümayəndələrinin də iştirak etdiyi tədbirdə bütün sahələrdə müsbət olan ikitərəfli əlaqələri qeyd edən Azərbaycan Respublikasının Bolqarıstan Respublikasındakı səfiri Nərgiz Qurbanova bildirib ki, iki ölkə arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Mədəni əlaqələrin genişlənməsinə də toxunan səfir 2019-cu ilin aprel ayında Azərbaycanın 5 minillik tarixə malik Naxçıvan şəhəri ilə Bolqarıstanın tarixi və mənəvi paytaxtı olan Veliko Tırnovo şəhərlərinin qardaşlaşmış şəhər elan olunduğunu qeyd edib.



Qonaqlar Naxçıvan Muxtar Respublikasının yaradılmasının 95-ci ildönümü münasibətilə təşkil olunan fotosərgiyə baxıblar. Sərgidə muxtar respublikanın əlamətdar yerlərini əks etdirən fotoşəkillər nümayiş olunub.

**AZƏRTAC**

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamında qarşıya qoyulan vəzifələrin icrası ilə əlaqədar Dövlət Nəqliyyat Xidməti tərəfindən "İdeyadan başlanğıca" layihəsi çərçivəsində "Nəqliyyat könüllüləri" layihəsi həyata keçirilib.*

## Tələbələrlə görüş keçirilib



Layihə bir ay müddətində iki mərhələdə təşkil edilib. İlk mərhələ şəhərdaxili nəqliyyatda sürücülər və ictimai nəqliyyatdan istifadə edən sərnişinlər, ikinci mərhələdə isə şəhərlərarası ictimai nəqliyyat vasitələrindən istifadə edən sərnişinlər arasında reallaşdırılıb. Dövlət Nəqliyyat Xidməti əməkdaşlarının müşayiəti ilə qruplar şəklində təbliğat xarakterli məlumatları ictimai nəqliyyat vasitələrindən istifadə edən sürücü və sərnişinlərə çatdıran könüllülər sürücüləri daha məsuliyyətli və cəmiyyətə qarşı qayğıkeş olmağa, sərnişinləri isə yol hərəkətinin təhlükəsizliyi qaydalarına məsuliyyətlə yanaşmağa, avtobuslardan istifadə edərkən avtobusdaxili qaydalara və səliqə-sahmana riayət etməyə çağırıb, sürücü və sərnişinlərə bukletlər paylayıblar.

Naxçıvan Dövlət Universitetinin və Naxçıvan Dövlət Texniki Kollecinin hamiliyə verilmiş müvafiq ixtisasları üzrə təhsil alan tələbələrin iştirakı ilə təşkil olunan layihənin sonunda keçirilən görüşdə xidmətin rəisi Əli Hüseynəliyev çıxış edərək qarşıya qoyulan vəzifələrin icrası istiqamətində həyata keçirilən "İdeyadan başlanğıca" layihəsi çərçivəsində "Nəqliyyat könüllüləri" adlı layihənin təşkilindən, eləcə də könüllülük fəaliyyətinin tərbiyəvi əhəmiyyətindən danışıb. O, layihədə iştirak edən könüllü gənclərin fəaliyyətini yüksək qiymətləndirib, belə tədbirlərin bundan sonra da davam etdiriləcəyini diqqətə çatdırıb.

Sonra layihədə fəal iştirak edən könüllülərə diplom və oxunmalı zəruri olan kitablar təqdim edilib.

**Nail ƏSGƏROV**

*Muxtar respublikada ərzaq təhlükəsizliyinin təminatında mühüm sahə olan heyvandarlığın inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir.*

## Muxtar respublikada heyvandarlıq məhsullarının istehsalı artmışdır

Son dövrlər yeni heyvandarlıq təsərrüfatlarının yaradılmasının dəstəklənməsi, süni mayalanma yolu ilə doğulmuş hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması, yüksək məhsuldarlığı olan heyvanların baş sayının artırılmasına şəraitin yaradılması bu sahənin dinamik inkişafını təmin etmişdir.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin laboratoriyasının maddi-texniki bazasının gücləndirilməsi və süni mayalanma tədbirlərinin genişləndirilməsi məqsədilə alınmış avadanlıqlar və ləvazimatlar bu sahədə görülən işlərin davamlılığına daha da artırmışdır. Həmçinin muxtar respublikada istifadəyə verilən qəsəbə və kənd mərkəzlərində baytar sahə məntəqələrinin fəaliyyətinin təşkili ümumi inkişafa mühüm töhfə olmuşdur.

Heyvandarlığın inkişafında mühüm əhəmiyyət kəsb edən ixtisaslı kadrların hazırlanması, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti ixtisası açılmış, müasir tədris ocağı istifadəyə verilmişdir. Bundan əlavə, Naxçıvan Dövlət Texniki Kollecində müvafiq ixtisas üzrə yeni laboratoriya və fənn kabinələri yaradılmışdır.

2017-ci ildən muxtar respublikada təşkil olunan "Ailə təsərrüfatı məhsulları" festivalı ailə təsərrüfatlarında istehsal olunmuş heyvandarlıq məhsullarının satışının artmasına geniş imkanlar yaratmışdır.

Heyvandarlığın inkişafı istiqamətində cari ilin yanvar-aprel aylarında 5 heyvandarlıq təsərrüfatının yaradılması, 1 heyvandarlıq təsərrüfatının genişləndirilməsi davam etdirilmişdir. Bu sahə ilə məşğul olan təsərrüfat subyektlərinə cari ilin yanvar-aprel aylarında bank və kredit təşkilatları tərəfindən 2 milyon 409 min 700 manat kredit verilmişdir ki, bu da bir il öncəki göstəricidən 44 faiz çoxdur. Ümumilikdə, son on ildə bu sahəyə 74 milyon 597 min 500 manat kredit verilmişdir.

2019-cu ilin yanvar-aprel aylarında muxtar respublikada heyvandarlıq təsərrüfatlarında 3909 baş inək, düyə və camış süni yolla mayalandırılmış, əvvəlki dövrdə mayalandırılmış inək, düyə və camışlardan 3932 baş sağlam bala alınmışdır.

Həyata keçirilən dəstəkləyici tədbirlər iribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayının dinamik artımını təmin etmişdir. Belə ki, 1 aprel 2019-cu il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında iribuynuzlu mal-qaranın sayı 121 min 230 baş, xırdabuynuzlu heyvanların sayı isə 754 min 918 baş olmuşdur ki, bu da 2009-cu ilin müvafiq dövründəki göstəriciləri 16,2 və 19,5 faiz üstələmişdir.

*İribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayı*




İribuynuzlu və xırdabuynuzlu heyvanların baş sayının artımının və cins tərkibinin yaxşılaşdırılmasının nəticəsi olaraq 2019-cu ilin yanvar-aprel aylarında muxtar respublikada diri çəkidə 7939,7 ton ət, 25675,6 ton süd istehsal olunmuşdur ki, bu da 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 38,3 və 16,1 faiz çoxdur.

Bəhs olunan dövrdə 36 milyon 413 min 600 manatlıq heyvandarlıq məhsulları istehsal edilmişdir ki, bu da 2009-cu ilin müvafiq dövrü ilə müqayisədə 2 dəfə çoxdur.

Hazırda inşası davam etdirilən Süni Mayalanma Mərkəzi muxtar respublikada mal-qaranın cins tərkibinin yaxşılaşdırılmasına, heyvandarlıq təsərrüfatlarında süni yolla mayalandırma işinin davamlılığına, mal-qaranın baş sayının və heyvandarlıq məhsulları istehsalının artımına müsbət təsir göstərəcəkdir.

2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması və ailə təsərrüfatlarının fəaliyyətinin daim diqqətdə saxlanılması, özünüməşğulluğun təmin olunmasına, iqtisadiyyatın, xüsusilə də aqrar sektorun inkişafına yeni imkanlar yaradır.

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti**

## Şahtaxtı hamamı bərpa olunur

Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri sırasında tarixi mədəniyyət abidələrinin bərpası mühüm yer tutur. Son illərdə qədim diyarımızda onlarla tarixi-memarlıq abidələri əsaslı şəkildə bərpa edilib, onlara ikinci həyat verilərək turizm üçün cəlbediciliyi təmin olunub. Tarixi əhəmiyyəti ilə seçilən belə tikililərdən biri də Şahtaxtı hamamıdır.



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Şahtaxtı hamamında kompleks bərpa işlərinə başlanılıb.Əvvəlcə hamamın ətrafı və daxilində təmizlik işləri aparılıb, binanın içərisində torpaq işləri görülüb. Hazırda tarixi abidənin təməl hissəsinin möhkəmləndirilməsi üçün binanın daxilində və fasad hissədə beton işləri davam etdirilir, uçulan yerlərin bərpası üçün hörgü işləri aparılır, pəncərə yerləri qoyulur. Bərpa zamanı hamamın ilkin quruluşunun qorunub saxlanılmasına, işlərin milli memarlıq ənənələri əsasında aparılmasına xüsusi diqqət göstərilir.

Məlumat üçün bildirək ki, XIX əsrin yadigarı olan Şahtaxtı hamamı düzbucaqlı formada olub 210 kvadratmetrlik ərazini əhatə edir. Binanın xaricdən uzunluğu 20, eni 9 metrdir. Müxtəlif ölçülərdə 2 salon, 2 köməkçi otaq və ocaqxanadan ibarət olan kompleks iki hündür günbəzlə tamamlanır. Binanın işıqlandırılması tavanda açılmış bacalar kompleksinin köməyi ilə həyata keçirilib. Tarixi abidənin elmi şəkildə bərpası onun turizm cəlbediciliyini də artıracaqdır.

**Babək İSMAYILOV**

# Muxtariyyət illərində Naxçıvanda su təsərrüfatının inkişafı

## *Bu proses müstəqillik illərində daha geniş vüsət alıb*



***Su təmizlik, aydınlıq, həyat deməkdir. Həyatımız isə ərzaq təhlükəsizliyinin təmin olunmasından xeyli dərəcədə asılıdır. Son illər muxtar respublikada bu istiqamətdə həyata keçirilən tədbirlərin davamlı xarakter alması hər bir naxçıvanlını ürəkdən sevindirir. Bəhrələrini hamılıqla gördüyümüz həmin tədbirlərin əsası ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə qoyulub. Dahi rəhbərin inkişafına böyük önəm verdiyi sahələr sırasında meliorasiya və irriqasiya da mühüm yer tuturdu.***

Ümummilli lider meliorasiya-irriqasiya tədbirlərinin həyata keçirilməsini ona görə vacib sayırdı ki, məhsuldar torpaq sahələrimiz əkilməmiş qalmasın, şoranlaşmanın qarşısı alınsın, əhalinin yerli əkinçilik məhsullarına tələbatı daxili imkanlar hesabına ödənilsin, ərzaq təhlükəsizliyi təmin edilsin, güclü iqtisadiyyata nail olaq, iqtisadi asılılıq qapılarımızı döyməsin. Bu tədbirlər ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını da əhatə edirdi. O dövrə qısa ekskurs etsək, görərik ki, əgər 1970-ci ilə qədər muxtar respublikada kiçik və az əhəmiyyətli bir neçə su anbarı yaradılıbsa, həmin ildən sonra ümumi tutumu 1 milyard 544 milyon kubmetr olan 20 su anbarı tikilib. Bütövlükdə, muxtar respublikada 1970-ci ildən sonra istifadəyə verilmiş su anbarları 55 min hektara yaxın torpaq sahəsinin suvarılmasına xidmət edib.



Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü meliorasiya və irriqasiya sahəsində həyata keçirilən tədbirləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov belə xarakterizə edir: ***“Muxtar respublikada istifadəyə verilən su anbarları və başqa əhəmiyyətli suvarma obyektləri məhsuldar qüvvələrin inkişafında mühüm rol oynamışdır... Həmin dövrdə görülən irimiqyaslı meliorasiya və irriqasiya tədbirləri məhsul bolluğuna təminat yaratmış, muxtar respublikanın kəndləri simasını dəyişmiş, adamların güzəranı yaxşılaşmışdır. Bir sözlə, muxtar respublikada iri sututarların, dəryaçaların inşa olunması, sadəcə, tikinti proqramlarının yerinə yetirilməsi demək deyildi. Bu, eyni zamanda uzun müddətə hesablanmış strateji proqram idi”.***

Görkəmli dövlət xadimi Azərbaycana rəhbərliyinin ikinci dövründə də belə tədbirlərin həyata keçirilməsinə ciddi önəm verib.

Bu məqamda yenə bir qədər əvvələ qayıdaraq qeyd edək ki, tikintisinə 1982-ci ildən başlanan, lakin ulu öndər Azərbaycandan gedəndən sonra dayandırılan Naxçıvançay üzərində tikiləcək su anbarında işlər müdrik rəhbərin ikinci dəfə hakimiyyətə gəlişindən sonra davam etdirilməyə başladı. 2002-ci ildə isə Heydər Əliyev Su Anbarı üçün uzunluğu 24 kilometr sağ sahil və uzunluğu 30 kilometr sol sahil magistral kanallar tikilərək 2005-ci ildə başa çatdırıldı. Həmin il dekabr ayının 19-da istifadəyə verilən anbarın açılışında ölkə başçısı cənab İlham Əliyev iştirak edib. 100 milyon kubmetr tutumu olan su anbarının hesabına 16830 hektar torpaq sahəsinə suvarma suyunun verilməsi yaxşılaşdırılıb. Bunun 6400 hektarı ilk dəfə su verilən torpaq sahələri olub.

Həmçinin Uzunoba və Arpaçay Su anbarlarında aparılan yenidənqurma işləri nəticəsində həmin su mənbələrinin istismarı uzunmüddətli artırılıb, Sirab və Bənəniyar göllərində bəndin daşla bərkidilməsi hesabına onların layihə gücündə doldurulması mümkün olub, su anbarlarında tələb edilən təmir-bərpa işləri aparılıb.

...Daha bir təsərrüfat ilinin qayğılı günlərini yaşayırıq. Belə qayğılar torpağı daimi iş yerinə çevirən muxtar respublikanın torpaq mülkiyyətçilərini qəti qorxutmur. Çünki ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasətin muxtar respublikada uğurla davam etdirilməsi meliorasiya və irriqasiya sahəsində olan bütün çətinlikləri aradan qaldırıb. Muxtariyyətin müstəqillik illərində isə həyativacib məsələlərə müasir dövrün prizmasından yanaşılır, meliorasiya tədbirlərinin həyata keçirilməsində mütərəqqi metodlar tətbiq edilir. Həmin tədbirlərin ifadəsidir ki, bu gün muxtar respublika ərazisində Araz Su Anbarı istisna olmaqla, ümumi həcmi 303,52 milyon kubmetr olan irili-xırdalı istismar edilən 31 su anbarı mövcuddur.

Aparılan meliorativ tədbirlər sırasında şoranlaşmanın qarşısının alınmasını da qeyd etmək lazımdır. Məhz belə tədbirlər nəticəsində 2016-2018-ci illərdə Şərur, Babək, Sədərək, Culfa rayonlarında, ümumilikdə, 4700 hektar ərazidə qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınıb. Bu isə həmin ərazilərdə yüksək məhsul istehsalına, torpaq mülkiyyətçilərinin yaxşı qazanc əldə etmələrinə imkan verib.

Bəhs olunan dövrdə mütərəqqi suvarma sistemlərinin qurulması da diqqət mərkəzində saxlanılıb. Su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, istifadə olunmayan torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək məqsədilə qapalı suvarma şəbəkələri tikilib, drenaj xətləri çəkilib. Babək rayonunun Nehrəm kəndi ərazisində 1170, Culfa rayonunun Bənəniyar kəndi ərazisində 1050, Kəngərli rayonunun Böyükdüz, Xok və Yurdçu kəndləri ərazilərində 1799,4 hektar sahə olmaqla, ümumilikdə, 4019,4 hektar sahəni əhatə edən ərazidə qapalı suvarma şəbəkəsi tikilib. Hazırda Kəngərli rayonunun Yurdçu kəndi ərazisində 76, Şahbuz rayonunun Türkeş kəndi ərazisində 300 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir.

Babək rayonunun Kültəpə, Şərur rayonunun Xanlıqlar, Ələkli və Vərməziyar kəndlərinə suvarma suyunun verilməsi üçün 6 kilometr yeni boru xətti çəkilib, 50 hektar ərazi yeni əkin dövriyyəsinə daxil edilməklə 1154 hektar əkin sahəsi suvarma suyu ilə təmin olunub.

Ordubad rayonunda Zəvvar və Gülaman arxının 5,5 kilometr hissəsində təmir-bərpa işləri yerinə yetirilib, Əylis kəndi ərazisində 4,3 kilometr uzunluğunda yeni arx çəkilərək 261 hektar torpaq sahəsi daimi suvarma suyu ilə təmin edilib.

Bəhs olunan dövrdə mexaniki suvarma üsulunun tətbiqi də diqqətdə saxlanılıb. İkinci suvarma mənbəyi kimi istifadə edilən 100 nasos stansiyası və 800 subartezian quyusu bu gün torpaq mülkiyyətçilərinin xidmətindədir. Həmin su mənbələrindən səmərəli istifadə olunması diqqət mərkəzində saxlanılır.

Yeni nasos stansiyaları, subartezian quyuları vasitəsilə torpaqların əkin dövriyyəsinə qatılması da öz həllini tapıb. Belə ki, 1995-2018-ci illər ərzində Araz, Vayxır, Ordubad çayları, Arpaçay, Buzqovçay üzərində 47 yeni nasos stansiyası tikilib, 400-dən artıq subartezian quyusu qazılıb.

Bəhs olunan dövr ərzində suvarma və içməli su təminatında qədim hidrotexniki qurğu olan kəhrizlərdən geniş istifadə edilib, onların təmir-bərpası daim diqqət mərkəzində saxlanılıb. Bu gün muxtar respublikanın şəhər və rayonlarında 336 kəhriz istismar olunur. 2003-2018-ci illər ərzində 133 kəhrizin təmir-bərpasının aparılması bu qədim su mənbələrindən istifadəni xeyli yaxşılaşdırıb.



Bu illər ərzində muxtar respublikanın su təsərrüfatı işçiləri daha bir vəzifəni yerinə yetirməkdədirlər. Ən qiymətli sərvət olan torpaqlarımızı sel sularının təsirindən qorumaq məqsədilə hər il sahilbərkitmə işləri aparılır. Bu gün Sədərək rayonundan başlamış Ordubadadək, eləcə də Şahbuz rayonunda çay və selovlarda 565 kilometr selə qarşı istiqamətləndirici bənd salınıb.

Şərur, Kəngərli, Culfa və Ordubad rayonlarında Araz çayı boyunca 54,1 kilometr sahilbərkitmə işləri aparılıb. Bu tədbirlərin görülməsində keyfiyyət amili ön plana çəkilib. Ona görə də həyata keçirilmiş tədbirlər öz bəhrələrini verməkdədir.

Su təsərrüfatı sahəsində qarşıda duran ən mühüm vəzifələrdən biri insanları sağlam və ekoloji cəhətdən təmiz su ilə təmin etməkdir. İçməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadənin yaxşılaşdırılması istiqamətində də muxtar respublikamızda irimiqyaslı layihələr həyata keçirilib. “Su Təchizatı və Kanalizasiya İnvestisiya Proqramı” layihəsi çərçivəsində Naxçıvan şəhərinin su təchizatı və kanalizasiya sistemləri yenidən qurulub, əhalinin içməli suya olan ehtiyacı tam şəkildə ödənilib.

Naxçıvançay yatağında uzunluğu 2,9 kilometr, dərinliyi isə 6 metr olan kaptaj tikilib, kaptajdan sutəmizləyici qurğuya qədər 6,4 kilometr özüaxınlı şüşəlifli magistral boru xətti çəkilib.



Babək rayonunun Şıxmahmud kəndi ərazisində Naxçıvan Şəhər Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib. Membrantipli qurğu əhalinin ekoloji cəhətdən təmiz və dayanıqlı içməli su ilə təmin edilməsində böyük rol oynayır. Kompleksdə suyun təmizlənməsi üçün ən müasir qurğu və avadanlıqlardan istifadə olunur. Qurğunun gücü saniyədə 472 litrdir. Təmizlənmiş su ümumi tutumu 25 min kubmetr olan 3 su anbarına yığılır və şəbəkəyə ötürülür. Sutəmizləyici qurğudan şəhər şəbəkəsinə hər birinin uzunluğu 3,25 kilometr olmaqla, cəmi 7,5 kilometr şüşəlifli borularla özüaxınlı qoşa magistral xətti çəkilib. Layihə çərçivəsində Naxçıvan şəhəri və Naxçıvan şəhər inzibati ərazisinə aid olan Qaraçuq, Bulqan, Qaraxanbəyli, Hacıniyyət və Tumbul kəndləri, Babək rayonunun Şəkərabad, Xəlilli və Şıxmahmud kəndləri daxil olmaqla, su və kanalizasiya şəbəkəsinin tikintisi həyata keçirilib. Nəticədə, 350,1 kilometr daxili su və 332,5 kilometr kanalizasiya şəbəkələri çəkilib, 25 min 874 ev birləşməsi aparılaraq sayğac quraşdırılıb, 135 min sakin fasiləsiz olaraq Beynəlxalq Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə təmin edilib.

Naxçıvan şəhərində kanalizasiya sistemləri yenidən qurularkən əsas diqqət yetirilən məsələlərdən biri də çirkab suların təmizlənərək suvarma suyu kimi istifadə olunmasına şərait yaradılmasıdır. Bu məqsədlə Araz çayının kənarında tikilmiş Naxçıvan Şəhər Təmizləyici Qurğular Kompleksi gün ərzində 32 min kubmetr çirkab sutəmizləmə gücünə malikdir. Suvarma mövsümündə təmizlənmiş sudan öz axını ilə 170 hektar, nasoslar vasitəsilə isə 330 hektar sahəni suvarma suyu ilə təmin etmək mümkündür.

Bu istiqamətdə həyata keçirilən tədbirlər paytaxt şəhərimizlə məhdudlaşmayıb, muxtar respublikanın rayonlarında da içməli su və kanalizasiya şəbəkələrinin yeniləşdirilməsi işləri aparılır. “Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində görülən işlərin həcmi də böyükdür. Şərur, Şahbuz, Culfa, Babək, Ordubad, Sədərək, Kəngərli rayonlarında, ümumilikdə, 608,11 kilometr içməli su, 367,3 kilometr kanalizasiya xəttinin çəkilməsi, 15 min 289 su birləşməsi, 11 min 22 kanalizasiya bağlantısının aparılması muxtar respublikada insan amilinə göstərilən qayğının ifadəsi kimi dəyərləndirilir.

Culfa rayonunda tikilmiş sutəmizləyici qurğu gün ərzində 10 min 800 kubmetr və Şahbuz rayonunda tikilmiş sutəmizləyici qurğu isə gün ərzində 6600 kubmetr sutəmizləmə gücünə malikdir. Çirkab suların təmizlənmədən çaylara axıdılmasının, ətraf mühitin çirklənməsinin qarşısının alınması məqsədilə Naxçıvançay kənarında tikilən Şahbuz şəhər təmizləyici qurğuları gün ərzində 2800 kubmetr çirkab sutəmizləmə gücünə malikdir. Qurğu 14 min 700 istifadəçiyə xidmət edir.

Tikinti işləri aparılarkən muxtar respublikanın iqlim şəraitinin və relyefinin nəzərə alınması, keyfiyyətə xüsusi diqqət yetirilməsi qurulan yeni içməli su və kanalizasiya sistemlərinin uzun müddət istismarına imkan verəcəkdir.

Bir məsələni də vurğulamağa ehtiyac duyuruq. Muxtar respublika sakinlərinin içməli və təsərrüfat suyuna olan tələbatının ödənilməsində fəaliyyət göstərən su təsərrüfatı işçilərinin əməyi dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib. Belə ki, Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin və komitənin tabeliyində olan qurumların əməkdaşlarından 2 nəfəri “Şöhrət” ordeninə, 1 nəfəri “Azərbaycan Respublikasının Əməkdar mühəndisi” fəxri adına, 31 nəfəri “Tərəqqi” medalına, 1 nəfəri Prezidentin fəxri təqaüdünə, 6 nəfəri “Naxçıvan Muxtar Respublikasının Əməkdar mühəndisi”, 2 nəfəri “Əməkdar dövlət qulluqçusu” fəxri adlarına, 3 nəfəri “Rəşadətli əməyə görə” nişanına layiq görülüb.

***Hörmətli oxucu! Bu yazıda 95 yaşı tamam olan muxtariyyətimizin müstəqillik dövrü, daha dəqiq desək, 1995-ci ildən sonrakı zaman kəsiyində görülən işlərin bir qisminə nəzər saldıq. Reallaşdırılmış tədbirlərin həcmi isə çox böyükdür. Bütün bunlar muxtar respublika sakinlərinin qiymətli sərvət sayılan suya olan tələbatının ödənilməsində mühüm rol oynayıb. Yadıma atalarımızın həmişə xatırladığımız sözləri düşür: Su çəkdirmək ən savab işdir.***

***Muxtar respublika sakinləri də belə savab işlər görməyi həyat amalına çevirənlərə minnətdarlığını bildirir.***

**Muxtar MƏMMƏDOV**

***Bu il 100 yaşı tamam olan Ərtoğrol Cavidə tale Hüseyn Cavidin oğlu olmaq xoşbəxtliyini nəsib etmişdi. Bəlkə də, tay-tuşlarının çoxu bu baxımdan Ərtoğrola həsəd aparırdı. Amma Ərtoğrol Cavidin özü də, ona həsəd aparanlar da hələ bilmirdilər ki, Cavid övladı olmaq xoşbəxtliyi tezliklə bir nəslin, bir ocağın, xüsusən də Ərtoğrol Cavidin faciəsinə çevriləcək. Məhz bu cəhət – Hüseyn Cavidin oğlu olmaq xoşbəxtliyi və faciəsi Ərtoğrol Cavidin qısa, mənalı ömrünün tam mənzərəsini əks etdirirdi.***

*Ərtoğrol Cavid – 100*

# Böyük mənəvi irsin layiqli varisi



Ərtoğrol Cavidin 1939-cu ildə öz əli ilə yazdığı qısa tərcümeyi-halda oxuyuruq: *"Mən, Cavid Ərtoğrol 1919-cu il 22 oktyabrda Bakı şəhərində doğulmuşam. Bu günə kimi daimi yaşayış yerim Bakı şəhəridir. 1926-27-ci illər Azərbaycan Darülmüəllimatı yanındakı nümunə məktəbinə daxil olub, 1927-28-ci illər (2-ci sinifdə oxurkən) 8-ci şura məktəbinə (indiki 1 nömrəli tam orta məktəbə) dəyişilmişəm. 1935-36-cı illərdə tədris zərbəçisi kimi oranı bitirmişəm. 1936-37 tədris ilində Azərbaycan Pedaqoji İnstitutuna daxil olub indi...dil və ədəbiyyat fakültəsində oxumaqdayam.*

*Valideynlərimə gəlincə, atam Hüseyn Cavid 1882-ci ildə doğulub. Revolyusiyaya qədər müəllimliklə məşğul olmuş (revolyusiyadan sonra da davam etdirmiş). Müəllimlik stajını nəzərə alaraq ...ona persional pensiya verəcəkdilər. Lakin onun əsas sənəti yazıçılıq, dramaturqluq idi. 1937-ci il iyunun 3-də ailəsinə, o cümlədən mənə hələ də məlum olmayan səbəblərlə Az.XDİK tərəfindən həbs edilmiş. 1939-cu ildə 8 il hüquqdan məhrumluqla məhkum edilmiş. Anam isə ibtidai savad almış bir qadındır, daima ev təsərrüfat işlərini aparmış. Son il tikiş artelində işlədi (1938-ci ilin aprel ayından 1939-cu ilin iyul ayına qədər), lakin əlləri ağrıdığından və gözləri zəif gördüyündən işi tərk etdi.*

*Ailəmiz 3 üzvdən ibarətdir: Anam, bacım və mən. Heç birimiz seçki hüququndan məhrum edilməmişik. Maddi vəsait mənim stependiyam və iş maaşımdır. Dərs oxumaqla bərabər ailə şəraitinin ağırlığı ilə mən Azərbaycan Dövlət Konservatoriyası yanındakı Musiqi Elmi-Tədqiqat Kabinetində elmi işçi kimi işləməkdəyəm".*

1936-cı ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsində təhsil almağa başlaması ilə Ərtoğrol Cavid həyatında və taleyində yeni mərhələyə qədəm qoyur. O, burada ədəbiyyatı artıq sistemli və kompleks şəkildə öyrənmək imkanı qazanır. Ərtoğrol Cavid ali təhsil almaqla yanaşı, Azərbaycan Dövlət Konservatoriyasının nəzdində qüdrətli sənətkar Bülbülün rəhbərlik etdiyi Musiqi Elmi-Tədqiqat Kabinetində işə düzəlir. 1932-ci il iyul ayının 29-da yaradılmış kabinetin işində Bülbül, Ü.Hacıbəyov, S.Rüstəmov, C.Qaryağdı, S.Şuşinski, Q.Primov, M.Mansurov, L.M.Rudolf kimi yaşlı sənətkarlarla yanaşı, Q.Qarayev, C.Hacıyev, T.Quliyev, Z.Bağırov və başqa gənclər də fəal iştirak edirlər. Azərbaycanın xalq musiqisinin toplanmasında, nota alınmasında, musiqi folklorşünaslığının inkişafında mühüm rol oynayan kabinetdə Ərtoğrol Cavid də səmərəli fəaliyyət göstərməyə başlayır.

Ərtoğrol Cavid 1941-ci ildə Azərbaycan Dövlət Konservatoriyasına daxil olur. O vaxta qədər Ərtoğrol Cavid öz üzərində ciddi şəkildə çalışır, anketdə yazdığı kimi, iki il işləyir, musiqi təhsilini daha da artırır. Musiqi təhsilini o dövrdə Bakıda tanınmış musiqiçi pedaqoqlardan biri sayılan Rudolfdan alması onun bir musiqişünas kimi formalaşmasında böyük rol oynayır. Şagird-müəllim arasında elə isti və səmimi münasibət yaranmışdı ki, Ərtoğrol Cavid kimi diqqətcil bir gənc onun xeyirxahlığını unuda bilməzdi.

Ərtoğrol Cavid konservatoriyada oxuyarkən "Məhsəti", "Marş", "Eşq olsun", "Leylanın vəsfi", "9 variasiya", "Səninlə olaydım" və başqa musiqi əsərlərini yazmışdır. Azərbaycan mədəniyyəti tarixində bir ulduz kimi parlayıb tez də sönən Ərtoğrol Cavid çoxyönlü istedadı ilə diqqəti çəkməkdədir. O həm atası dahi Hüseyn Cavid kimi şair, həm müəllimləri Bülbül və Üzeyir bəy Hacıbəyli kimi istedadlı musiqişünas və bəstəkar, həm də öz dövrünün böyük ümidlər verən musiqi və folklor tədqiqatçısı olmuşdur. Etnoqrafiya sahəsində də Ərtoğrolun xüsusi bilik və qabiliyyətinin olduğunu söyləmək üçün onun hazırda Azərbaycan Milli Elmlər Akademiyası Hüseyn Cavidin ev-muzeyində saxlanılan, həm özünün, həm də başqa yoldaşlarının topladığı çoxsaylı folklor materialları haqqında tədqiqat işləri əsas verir. Atası Hüseyn Cavid kimi fəlsəfi dünyagörüşünün daşıyıcısı olan Ərtoğrol Cavid yaşının və təcrübəsinin az olmasına baxmayaraq, məşğul olduğu elm və sənət sahələrində heyrətamiz bir erudisiya göstərmiş və toplama materiallarına yazdığı lakonik qeydlərində peşəkar, böyük ümidlər bəxş edən tədqiqatçı-alim olduğunu sübuta yetirmişdir.

Əlbəttə, hər şeydən öncə, Ərtoğrol Cavid peşəkar bir musiqiçidir və musiqi nəzəriyyəsi, musiqi əsərlərinin yaradıcılığı, eləcə də musiqi folkloru sahəsində onun irəli sürdüyü fikirlər və ərsəyə gətirdiyi əsərlər bu gün də öz aktuallığını və əhəmiyyətini qoruyub saxlamaqdadır. Örnək üçün onun klassik musiqi sahəsindəki əsərlərini göstərmək kifayətdir. Bu əsərlər Hüseyn Cavidin ev-muzeyi tərəfindən nəşr edilmiş və kompakt disklərdə dinləyicilərə, eləcə də cavidsevərlərə çatdırılmışdır.

Hər bir istedadlı adam kimi, Ərtoğrol Cavidin də qabiliyyəti çoxyönlü olmuşdur. Onun qələmindən və fırçasından çıxan bir sıra portretlər, yazdığı şeirlər belə deməyə əsas verir ki, ömür vəfa etsəydi, bu sahələrdə də əhəmiyyətli uğurlar qazana bilərdi. Ərtoğrolun əlimizdə olan qısa tədqiqatları, onda elmi təfəkkürün və analitik düşüncənin də kifayət dərəcədə güclü olduğunu göstərməkdədir. Hər şeydən öncə, Ərtoğrolu bu baxımdan tədqiq etdiyi materiala sağlam və ayıq bir araşdırıcı münasibəti göstərməsi, predmetə məntiqi yanaşma qabiliyyəti nümayiş etdirməsi fərqləndirir.

Ərtoğrol Cavid həm də klassik mətni duyan, orijinala sədaqət göstərən, onu bərpa etməyin yollarını bilən bir mətnşünas kimi diqqəti cəlb edir. Xüsusən el aşıqlarının yaradıcılığına yaxşı bələd olan gənc tədqiqatçı ona qədər çap olunmuş mətnlərə də dərindən bələd olması ilə seçilir.

Hüseyn Cavidin ölümündən 15 il sonra bəraət alması ilə bütün Cavidlər bəraət aldılar; görkəmli dramaturq, filosof şair haqqında qədirşünaslıq əsərləri meydana çıxdıqca onun istedadlı oğlu da bu prosesdən kənarda qalmadı. Ancaq böyük Cavidin həqiqi bəraəti xalqımızın ümummilli lideri Heydər Əliyevin 1981-ci ildə onun 100 illik yubileyinin keçirilməsi haqqında verdiyi tarixi qərardan sonra baş tutduğu kimi, Ərtoğrol Cavidin də həqiqi bəraəti və onun haqqında layiq olduğu sözlərin deyilməsi və yazılması məhz keçən yüzilliyin 80-ci illərindən sonra gerçəkləşdi. Beləliklə, ərtoğrolşünaslığın tarixi o qədər də qədim olmayıb, 40 ilə yaxın bir dövrü əhatə edir. Bu müddət ərzində Ərtoğrol Cavidin həyat və yaradıcılığı görkəmli ziyalılarımızın və tədqiqatçılarımızın araşdırma və dəyərləndirmə obyektinə çevrilmişdir.

Ərtoğrol Cavidin yalnız Hüseyn Cavidin ev-muzeyində saxlanılan materiallar əsasında folklorşünaslıq irsinin bəzi cəhətlərindən danışarkən qeyd etmək yerinə düşər ki, onun folklor materiallarına yazdığı rəylər bir tərəfdən şərh, digər tərəfdən elmi-tədqiqat xarakteri daşıyır. Bir qayda olaraq, gənc tədqiqatçı sonda öz tövsiyələrini də verir. Hələ Azərbaycan Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsinə daxil olduğu 1936-cı ildən özünü peşəkar filoloq, mütəfəkkir gənc kimi göstərən Ərtoğrol Cavid 1938-ci ildə ilk elmi əsəri sayılan "Məktəb və ailə" referatını yazmışdı. Musiqi Elmi-Tədqiqat Kabinetində işləyərkən Ərtoğrol Cavid daha çox musiqi nəzəriyyəçisi kimi fəaliyyət göstərərək müxtəlif musiqi əsərlərinə, eləcə də folklor musiqisi örnəklərinə rəy yazır və bu lakonik rəylərdə hər bir əsərin layiqli qiymətini verməyə nail olurdu. Eyni səriştəni və peşəkarlığı biz Ərtoğrol Cavidin folklor materiallarına yazdığı yığcam rəylərdə görürük. Bunların arasında xalqın içərisindən toplanmış nağıllar, dastanlar, müxtəlif janrları əhatə edən aşıq poeziyası örnəkləri, bayatılar, laylalar, holavarlar, oxşamalar, xalq mahnıları, muğam mətnləri, oyun havaları, toy və yas mərasimlərinin təsviri və digər folklor-etnoqrafiya materialları vardır. Bu rəngarəng materiallara eyni səviyyədə, eyni səriştədə rəy yazmaq üçün insan doğrudan da dərin erudisiyaya, yüksək savada malik olmalı idi ki, bütün bunlar 20 yaşlı gənc Ərtoğrolda kifayət qədər idi. Məsələn, bir yazısında toplanmış materiala əsaslanaraq toy adətlərindən danışan Ərtoğrol Cavid, özünü həm də Azərbaycanın, inzibati-ərazi bölgüsünü yaxşı tanıyan, müxtəlif rayonların analoji adətlərinə, bu adətlərin kənd və şəhər fərqlərinə dərindən bələd olan bir el ağsaqqalı kimi göstərir. Bu materialların içərisində otuz dörd xalq mahnısı nota salınmışdır ki, bu da mənəvi sərvətlərimizi gələcək nəsillərə çatdırmaq yönümündə Ərtoğrol Cavid tərəfindən atılmış ilk addım və böyük xidmətdir.

Materialların böyük bir qismini xalqımız arasından toplanmış nağıl və dastanlar, aşıq poeziyası örnəkləri təşkil edir ki, Ərtoğrol Cavid bu sahədə də öz erudisiya və biliklərini həmin folklor materiallarına yazdığı rəylərdə və onlar haqqında söylədiyi elmi-tənqidi fikirlərdə yüksək səviyyədə ifadə etməyə nail olmuşdur. Ən çox razılıq doğuran odur ki, gənc alim, həmin materialları yalnız dar bir xronoloji çərçivədə deyil, tarixi-didaktik perspektivdə nəzərdən keçirməyə və qiymətləndirməyə üstünlük verir. Bu da göstərir ki, Ərtoğrol Cavid Azərbaycanın zəngin folklor irsinə mücərrəd bir anlayış kimi deyil, tarixboyu hərəkətdə olan və gənc nəsillərin vətənpərvərlik, milli-mənəvi dəyərlərə hörmət ruhunda tərbiyəsi yönündə necə böyük əhəmiyyət daşıya biləcəyini şüurlu şəkildə dərk edərək təbliğinə çalışıb.

Ərtoğrol Cavid rəylərinin, elmi fikirlərinin əyani folklor materialları kontekstində çağdaş oxucuya çatdırılması, zənnimizcə, müstəqil respublikamızda gedən ədəbi-mədəni inkişafın göstəricilərindən biri və Cavidlər irsinə verilən qədirşünaslıq örnəyi olacaqdır. Xüsusən müstəqil dövlətçiliyimizin etibarlı əllərdə gündən-günə möhkəmləndiyi indiki tarixi-siyasi şəraitdə, xalqımızın qeyri-maddi mənəvi irsinin dünya ictimaiyyəti tərəfindən daha böyük qəbulu ilə qəbul edildiyi vaxt bu işlərin həyata keçirilməsinin aktuallığının birə-beş artdığını bir daha söyləməyə ehtiyac yoxdur. Qürurverici haldır ki, Azərbaycan muğamı və Azərbaycan aşıq yaradıcılığı YUNESKO tərəfindən bəşəriyyətin qeyri-maddi mənəvi sərvətləri siyahısına daxil edilmişdir. Bunu da söyləmək xoşdur ki, Ərtoğrol Cavidin topladığı və şərhlər verdiyi materialların əksəriyyəti məhz mədəni irsimizin bu iki qoluna aiddir və onların nəşri təkcə ölkəmiz üçün deyil, bütün mütərəqqi bəşəriyyət üçün əhəmiyyət daşıyır.

AMEA Hüseyn Cavidin ev-muzeyində son zamanlar Cavidlər irsinin nəşri və təbliği sahəsində bir sıra mühüm əhəmiyyət kəsb edən işlər görülmüşdür. Bu mənada, mütəfəkkir-şair Hüseyn Cavidin istedadlı oğlu Ərtoğrol Cavidin tədqiq və tərtib edərək rəy verdiyi materiallar əsasında hazırlanmış "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" adlı sanballı nəşrin 2011-ci ildə on cilddə, nəfis tərtibatla işıq üzü görməsi, xüsusilə vurğulanmalıdır.

Ötən dövr ərzində muzeyin əməkdaşları bu istiqamətdə araşdırma və tədqiqatlarını davam etdirmiş, "Azərbaycanın qeyri-maddi mədəniyyət abidələri və Ərtoğrol Cavid" xəzinəsini zənginləşdirmək üçün əmək sərf etmişlər. Nəticədə, "Balaman məktəbi" dərsliyi və Ərtoğrol Cavid", "Ərtoğrol Cavidin nota köçürdüyü xalq mahnıları" və "Ərtoğrol Cavidin yarımçıq qalmış əsərləri" adlı yeni cildlər ərsəyə gəlmişdir. Dediklərimizdən aydın olur ki, çox qısa bir ömür sürmüş Ərtoğrol Cavid dahi atası Hüseyn Cavidin layiqli övladı olmuş, doğma xalqına xidmət yolunda onun işini davam etdirməkdən bir an belə, usanmamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Ərtoğrol Cavidin 100 illik yubileyinin keçirilməsi haqqında" 2019-cu il 18 aprel tarixli Sərəncamı onun istedadına, milli mədəniyyətimiz və ədəbiyyatımız qarşısındakı xidmətlərinə verilən yüksək qiymətdir. Sərəncamda da deyildiyi kimi: *"Ərtoğrol Cavid milli musiqi mədəniyyətimizin yeni yaradıcılıq nümunələri ilə zənginləşdirilməsində böyük rol oynamışdır. O, "9 Variasiya", skripka ilə forte-piano üçün "Poema", "Leylanın vəsfi" kimi romanslar, müharibə mövzusunda simfonik ballada və marşlar yaratmışdır. Çoxcəhətli yaradıcılıq yolu keçən Ərtoğrol Cavid, eyni zamanda rəssamlığın müxtəlif janrlarına da müraciət edərək özündən sonra yaddaqalan sənət nümunələri qoyub getmişdir. Ərtoğrol Cavid bədii yaradıcılıqla da məşğul olmuş, pyes və şeirləri dövrümüzədək gəlib çatmışdır".*

Heç şübhəsiz ki, həmin tarixi sərəncam Ərtoğrol Cavidin ədəbi-bədii, musiqi və boyakarlıq sənətinin inkişafındakı, Azərbaycan xalq mahnıları və folklorunun toplanması və öyrənilməsi sahəsindəki əvəzsiz xidmətlərinin araşdırılıb tədqiq olunmasına, bu dəyərli mənəvi irsin milliləşdirilməsinə, dünya miqyasında təbliğinə öz böyük töhfələrini verəcək.

**Gülbəniz BABAXANLI**
***AMEA Hüseyn Cavidin ev-muzeyinin direktoru, filologiya üzrə elmlər doktoru***

## İcbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən Şərur rayonunda icbari tibbi sığortanın tətbiq edilməsi ilə bağlı tədbir keçirilib.*



Tədbiri Şərur Rayon İcra Hakimiyyətinin başçısı Kamal Cəfərov açaraq icbari tibbi sığortanın əhəmiyyəti barədə danışıb. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Samiq Sadıxov çıxış edərək bildirib ki, 2017-ci il iyulun 1-dən icbari tibbi sığortanın tətbiqinə ilkin olaraq Sədərək rayonunda başlanılıb.

Qeyd olunub ki, icbari tibbi sığortanın Şərur rayonunda da tətbiq edilməsi üçün bütün lazımi məlumatlar müvafiq icra hakimiyyəti orqanlarına müraciət edilərək toplanılıb. Həmin məlumatlar əsasında icbari tibbi sığortaya cəlb olunacaq əhali, tibb müəssisələri və tibb işçilərinə dair mərkəzləşdirilmiş məlumat bazaları, proqram təminatları, reyestrlər yaradılıb. Tibbi sığorta Şərur rayonunda 115 min 575 nəfəri əhatə edəcəkdir.

Agentliyin direktoru bildirib ki, rayonda icbari tibbi sığortanın tətbiqinə hərtərəfli şərait yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərur rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 25 yanvar tarixli Sərəncamına uyğun olaraq 1 iyun 2019-cu il tarixdən rayon ərazisində icbari tibbi sığortanın tətbiqinə başlanacaqdır.

Müvafiq sərəncamda icbari tibbi sığortanın tətbiqi məqsədilə Şərur Rayon Mərkəzi və Uşaq xəstəxanalarına publik hüquqi şəxs statusu verilib və tibb işçilərinin əməkhaqqı əhəmiyyətli dərəcədə artırılıb. İcbari tibbi sığortanın tətbiqi məqsədilə görülən işlər vətəndaşlara göstərilən tibbi xidmətin keyfiyyətinin daha da artırılmasını, səhiyyə sisteminin dayanıqlı inkişafını, əhalinin və tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsini və maddi rifah halının yaxşılaşmasını təmin edəcəkdir.

Sonra çıxışlar olub.

**Səbuhi HƏSƏNOV**

## Xalq teatrlarının festivalı davam edir



*Mayın 29-da Şahbuz Rayon Xalq Teatrı Əbdürrəhim bəy Haqverdiyevin "Məşədi Qulam qiraət öyrənir" əsəri ilə festivalın ikinci tamaşasını nümayiş etdirib.*

Tamaşanın quruluşçu rejissoru Namiq Mehdiyev, rəssamı Səxavət Paşayev, musiqi tərtibatçısı Emin Hüseynovdur. Səhnə əsərindəki rolları Elbəyi Qəhrəmanov, Səadət Abdinova, Abbasəli Abbasov, Emin Hüseynov, Vahid Məlikov, İlahə Nəcəfova canlandırırlar. Obrazların təbii təqdimatı, səhnə əsərindəki hadisələrin və əsərin ideyasının olduğu kimi çatdırılması tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

**Əli RZAYEV**

Estafet

# Mütaliə hər yolun ən maraqlı əvvəli və ən gözəl sonudur

**(Esse)**

*Belə bir holland atalar sözü var: "Kitablar karlara səslənən dilsiz dostlardır". Elə buna görədir ki, kitaba uzaq olan kəslər həyata kor, insanlığa kar, cəmiyyət qarşısında isə hər zaman laldırlar. Mütaliə mənəviyyatı zənginləşdirməyin ən düzgün yoludur. Kitablar tarixboyu öz müqəddəsliyi ilə seçilib. Elə gəlin Böyük Monqol imperatorluğuna nəzər salaq.*

Monqolların Humayun adlı bir sultanı olub ki, o, özünəməxsus böyük bir kitabxanaya sahib imiş. Kitabxanasına özündən başqa heç kəsi buraxmayan Sultan Humayun 1556-cı ildə kitabxanasındakı hündür rəflərdən birindən kitab götürərkən yıxılıb və bununla da həyatını itirib. Buradan o nəticə meydana çıxır ki, böyük bir sultan sarayında o qədər qulluqçusu olmasına baxmayaraq, kitabı məhz özü götürüb və bunu heç kəsə əmanət etməyib. Görürsünüzmü, bu həm kitaba bir sultanın verdiyi qiymətdir, həm də elə düşünürəm ki, bu, bir insanın nə qədər qüdrətli olmasına baxmayaraq, onun mütaliəyə olan sevgisinin həyatından belə, dəyərli olması ilə bağlı danılmaz faktdır.

Belə bir söz vardır: bir kitab oxuyan elə bilir ki, hər şeyi bilir, bir neçə kitab oxuyan insan isə görür ki, əslində, o heç nəyi bilmirmiş. Mütaliə etdikcə həyat göz önündə günbəgün dəyişilir. Elə insanın özü də. Kamilləşməyə doğru addım atmaqdır mütaliə. Zaman keçdikcə, həyatı dərk etdikcə insan kitablarla yaxınlaşır, doğmalaşır və onu öz ruhu ilə eyniləşdirir. Zamanı idarə edən hökmdara dönür əsərlərin hər cümləsi. İnsanlığı dayandığı uçurumdan çəkib xilas edir. Ruhların psixologiyasına sığal çəkib yeni bir həyat açır insan önündə.

Az pulla böyük sərvət əldə etmək istəyirsənsə, kitab al! – deyib Tur Xander. Kitab alaq ki, yalnızlığımızın dostu olsun, kitab alaq ki, gələcək nəsillərə ən böyük mirası buraxa bilək, kitab alaq ki, ən güclü silaha malik olaq.

Bəzən kitablarımızı borc olaraq istəyənlər olur. Bu mövzuda bir az səmimi olmaq istəyirəm. Mən heç vaxt kitablarımı kimsəyə borc vermirəm. Bu, xəsislikdən deyil, həssaslıqdandır. Mən kitablarımı həyatım qədər sevirəm. Onları kimsəyə əmanət etmək ağlımın ucundan belə, keçmir. Qorxuram geriyə qaytarmazlar deyə. Qorxuram onlara zərər verərlər deyə. İtalyan atalar sözlərindən birində çox gözəl deyiblər, "Kitab, at borc verilməz". Ən böyük xəzinələrin açarıdır kitab. İnsanın həyatı bütünlükdə elə mütaliədən ibarətdir. Bəzən ac oluruq musiqiyə, oyuna, həyata. Amma mənim fikrimcə, ən gözəl aclıq kitaba qarşı olan aclıqdır. Arzu edirəm ki, ömrüm boyu ac olum nə isə öyrənməyə, mütaliə etməyə, kitablara. Heç vaxt doymayım kitablardan. Ruhum ən əvəzolunmaz məlhəmi bilsin onu. Evim olsun kitablar. Hətta məzarım belə, kitabların arasında qazılsın. Başdaşım Drayzerin "Dahi"si olsun, sinədaşım "Dədə Qorqud" dastanı. Bayramlarda gül əvəzinə kitab gətirsinlər məzarımın üstə. Və dünyanın ən xoşbəxt ölüsünə çevrilim. Xəzinəm, sərvətim, malım-mülküm, hər şeyim – kitablarım, sizsiz dünyam




olmasın, sizsiz dünya olmasın.

Müasir dövrdə hiss edirəm ki, kitab oxuyanların sayı bir qədər azalıb. Bu da məni bir xeyli düşünməyə vadar edir. Öz-özümə çox sual verirəm: niyə insanlar kitabdan, mütaliədən uzaq qaçır? Ya da niyə onlar özlərinə bu qədər yaxın olan sirdaşı, dostu görməyib başqa kimlərdənsə mədət umurlar? Axı insanın ən yaxın dostudur kitab. Ağlasan, boynuna sarılıb təskinlik verər cümlələri ilə, dərdini danışsan, ən gözəl məsləhəti görər hər hecası ilə. Mən elə özümdən deyim, kitablarımı qucaqlayıb ağladığım zaman da olub, kitablarımla əl-ələ verib ən böyük çətinliklərə güc gəldiyim zaman da. Bezmədiyim tək varlıqdır onlar.

Bəs bu insanlar kitablara qarşı niyə laqeydlik edir, axı niyə? Hər şeyi bir yana qoyub bu "kitab uzaqlığını" necə aradan qaldırmaq lazımdır, bir az da onu düşünməliyik. Məncə, kitab oxumayanların gözü qarşısında kitab oxusaq, gərəksiz mövzulardan danışanları dinləməyib də kitab oxuyuram, – desək, az da olsa, onlarda kitaba meyilliliyi artıra bilərik. Və həmin vaxt onlar başa düşə bilərlər ki, həyatı müsbət mənada dəyişəcək yeganə vasitə kitabdır. Kitab bilik mənbəyi olmaqla yanaşı, həm də güc, xoşbəxtlik mənbəyidir. Buna mütaliə ilə çatmaq mümkündür. Elə gəncliyin gələcəyini düşünən muxtar respublika rəhbərinin "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı da zamanın mütaliəyə qayıdış zərurətini gerçəkləşdirən ən zəruri çağırışdır. Əl-ələ verib gəncliyimizi ifrat texnologiya alüdəçiliyindən kitablaşmaya doğru aparmalıyıq. Bunun da tək yolu elə kitablarla yaxınlaşmaqdan başlayır. Mütaliə hər yolun ən maraqlı əvvəli və ən gözəl sonudur.

**Qızbəsti SULTAN**
*Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının II kurs tələbəsi*

Yurdumuzun nemətləri

# Naxçıvan göycəsi

*Naxçıvan Muxtar Respublikası tarixən əkinçiliyin inkişaf etdiyi özünəməxsus bağçılıq ənənəsi və iqlim müxtəlifliyi ilə seçilən bir diyardır. Mənbələrdə bu unikal diyarda bağçılığın üç min beş yüz ildən çox tarixə malik olduğu qeyd edilir. Muxtar respublikanın əlverişli torpaq-iqlim şəraiti burada gözəl ətrə və ləziz tama malik olan yüksəkkeyfiyyətli meyvələr yetişdirilməsinə imkan verir.*



Hələ XV əsrdə yaşamış tarixçi səyyahların yazılarında qeyd olunur ki, Naxçıvandakı faydalı meyvələrdən dünyanın heç bir yerində yoxdur. Burada yetişdirilən meyvələr təzə halda və qurudularaq daxili bazarlarda, eləcə də xarici ölkələrdə satılırdı. Meyvəçilik uzun illərin təcrübəsində bu regionun ənənəvi təsərrüfatçılıq sahələrindən biri hesab edilir. Naxçıvanın xalq seleksiyaçıları bir çox əsrlər ərzində özlərinə məxsus üsullarla tumlu, çəyirdəkli və qərzəkli meyvələrin 500-dən artıq nadir sortlarını yetişdiriblər.

Naxçıvan Muxtar Respublikasında meyvəçilik XIX əsrin əvvəllərindən başlayaraq daha geniş miqyasda inkişaf edib. Bu prosesdə ötən əsrin 70-80-ci illərində meyvə-tərəvəz məhsullarının emalı üçün yaradılmış konserv zavodlarının da böyük rolu olub. Muxtar respublikada meyvəçiliyin tarixinə və növ müxtəlifliyinə görə Ordubad, Naxçıvan şəhəri, Şərur, Şahbuz, Babək və Culfa rayonları bir ardıcıllıq təşkil edir.

Hazırda Naxçıvanda 4816 hektar sahədə müxtəlif növ meyvə bağları mövcuddur. Son illər meyvəçiliyin gəlirli sahə kimi inkişaf etdirilməsinə xüsusi önəm verilir. 2016-cı ilin 8 fevralında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə növbəti Dövlət Proqramının qəbul edilməsindən ötən dövr ərzində bu istiqamətdə əsaslı tədbirlər həyata keçirilib. Bu məqsədlə istehsalçılara meyvə bağlarının salınması üçün güzəştli kreditlər ayrılıb və məhsulların saxlanması məqsədilə soyuducu anbarlar tikilib istifadəyə verilib.

Qeyd edək ki, uzun illər xalq seleksiyaçıları meyvələrin daha məhsuldar sortlarını seçərək calaq yolu ilə yenilərini yaradıblar. Onlardan ən çox istifadə olunanı alçadır. Alça cır halda ağac və kol şəklində bitir. Ağacların qabıqları boz, çiçəkləri isə ağ və xırdadır. Meyvələri əksəriyyətlə yumurdur, ancaq yastı və bir qədər oval şəkildə olanlar da vardır. Ləti çəyirdəkdən ayrılmır.

Göycə daha iri, yetkin meyvəsinin ləti sulu və şirəli, lət hissəsi çəyirdəkdən tez ayrılan, dadlı və öz tamı ilə seçilən qiymətli bir meyvədir.

Naxçıvan göycəsinin ağacları girdəçətirli və ortaboyludur. Meyvə 30-50 qram, yumru formada saplaq hissəsi batıq, saplağı isə yoğun və qısadır. Yetişmiş dövrdə qabığı bərk, açıq-yaşıl, yetişməyə başlayanda isə açıq-sarı, şirin, şirəli və xüsusi ətirlidir. Çəyirdəyi xırdadır, iyulun ortalarında tam yetişməsinə baxmayaraq, mayın ortalarından etibarən yeyilməyə başlanılır.

Göycə, gavalı, alça və göyəm bitkiləri üçün torpaqda 3-8 faizə qədər kirəcin (əhəngin) olması çox əhəmiyyətlidir. Bu növə aid olan meyvə ağacları çəyirdəkləri, pöhrələri, qələmləri ilə artırılır, çox gözəl calaq tuturlar. Toxumları ilə artırıldıqda yalnız özü tozlananlar ana sorta məxsus əlamətləri saxlayır, əksər hallarda toxumdan cır alınır. Buna görə də istənilən sortları artırmaq üçün yalnız pöhrələrdən və calaq üsulundan istifadə edilir.

Naxçıvan Muxtar Respublikası şəraitində göycə üçün ən münasib və qiymətli calaqaltı alçadır. Bundan başqa, göycə üçün albuxara və gavalı da yaxşı calaqaltı ola bilər, lakin belə calaqdan alınan göycənin ömrü az olur. Göycədə ən əlverişli calaq göz və yarma calaqları hesab edilir.

Ta qədimdən suvarma əkinçiliyinin inkişaf etdiyi dövrə qədər Naxçıvan şəhərində əkin sahələri və meyvə bağları burada mövcud olan qədim kəhrizlərin suyu ilə suvarılmışdır. Bu gün də şəhərin "Çuxur", "Sarvanlar", "Xıncab", "Şahab" və "Əlixan" adlanan qədim məhəllələrində həyatyanı sahələr, əsasən, kəhriz suları ilə suvarılır.

Öz dadına, ətrinə və tərkibindəki C vitamininin miqdarına görə fərqlənən, yüksək alıcılıq qabiliyyəti olan göycə uzun illərdir ki, Naxçıvana şöhrət qazandırıb. Naxçıvanlılar bu meyvəni keyfiyyəti baxımından yetişdirildiyi əraziyə görə fərqləndirə bilirlər. Ən dadlı göycə adıçəkilən məhəllələrdə yetişdirilir.

Aparılan tədqiqatların nəticəsi göstərir ki, göycə meyvəsinin tərkibində olan turşuluğun, qələviliyin və şəkərliliyin nisbətləri bu meyvəni pəhriz meyvələr qrupuna aid etməyə əsas verir. Digər tərəfdən, meyvənin qalınqabıqlı, kövrək olmasında və çəyirdəkdən tez ayrılmasında, şirinliyində bitkinin kəhriz suyu ilə suvarılmasının öz rolu var.

Göycə bağlarının salınması üçün torpağın dərindən şumlanıb hazırlanması vacibdir. Çınqıllı yumşaq torpaqlarda dərin şuma ehtiyac yoxdur. Göycənin kökləri dayazda olduğundan onlar torpağın üst qatlarından istifadə edir.

Cavan göycə barvermə dövründə çox budanmalıdır. Çünki meyvəvermə fazasına kimi ağacları istənilən formaya salmaq mümkündür. Bu ağaclar birinci budama ilindən başlayaraq hər iki ildən bir budanmalıdır. Başlı-başına buraxıldıqda ağac çətirinin ortaları çılpaqlaşır, cavan şivlərin (pöhrələrin) yalnız ağacın çətiri altında əmələ gəlməsinə və məhsulun tədricən azalmasına səbəb olur.

Göycə ağacları birinci, ikinci illərdə sürətlə böyüyüb yaxşı boy atır, üçüncü ildə məhsula düşür, 4-5-ci illərdə məhsul verməyə başladıqdan sonra ağacların kökləri torpağın üst qatlarını tamamilə tutur və torpaq gübrələnmədikdə bu qat tezliklə qüvvədən düşür, məhsuldarlıq azalır. Bunun üçün bağlara payızda, torpaq şumlanan dövrdə 15-20 ton üzvi və hektara fiziki çəkidə 250-300 kiloqram fosfor, 150-200 kiloqram kalium gübrələrinin verilməsi vacib aqrotexniki tədbirlərdəndir.

Göycənin yaxşı məhsul verməsi üçün torpağın rütubətlə kifayət dərəcədə təmin olunması da vacibdir. Quraq iqlimdə göycə bağları suvarılmadıqda meyvələri keyfiyyətsiz olur. Torpaq yüngül tərkibli və özündə suyu çətin saxlayan olduqda suvarmaların sayı artırılmalıdır. Meyvələr yetişənədək rütubətin azlığı məhsulun miqdarına və keyfiyyətinə təsir edir. Naxçıvan şəraitində göycə ağaclarının 5-6 dəfə suvarılması vacib şərtlərdən biridir.

Göycənin meyvələri yetişməmiş halda daha çox istehlak edildiyindən həmin dövrdə də tələb artır, bazarda qiymət yüksəlir və məhsulun satışından daha çox gəlir əldə olunur. Ancaq buna baxmayaraq, onun yığılmamış yetkin meyvələri digər məqsədlər üçün (kompot, cem, lavaşa hazırlanır və ya qurudulur) istifadə olunur.

Aparılan təhlillərə görə, bir hektar sahədən 40-45 ton keyfiyyətli məhsul istehsal etməklə bazarlarda satışa çıxarmaq mümkündür. Muxtar respublika şəraitində yerli bazarlarda bir kiloqram göycənin qiymətini nəzərə alsaq, hektardan 40-45 min manat gəlir əldə edilə bilər. Bu, onu göstərir ki, göycə bağlarının salınması iqtisadi cəhətdən səmərəlidir.

Artıq Azərbaycanın Abşeron, Gəncə-Qazax, İsmayıllı, Quba, Göyçay və digər rayonlarında da Naxçıvan göycəsi sortunun meyvə plantasiyaları şəklində becərilməsi işlərinə başlanılıb. Dünyanın heç bir yerində yetişdirilməyən bu neməti qorumaq və tanıtmaq zəruridir, banan, kivi, ananas meyvələri ilə bir sırada yer tutmağa layiqdir. Düzdür, Azərbaycanın digər bölgələrində də müxtəlif alça ağaclarına rast gəlinir. Ancaq Naxçıvan göycəsi sortunun əmtəə görünüşü, keyfiyyəti və dadı tamamilə fərqlidir.

Bu meyvənin tanıdılması, brend məhsula çevrilməsi üçün ənənəvi olaraq Naxçıvan şəhərində "Göycə" festivalının keçirilməsi diyarımızda meyvəçiliyin inkişaf etdirilməsinə, genişləndirilməsinə, ümumiyyətlə, bağçılıq mədəniyyətinin dünya standartları səviyyəsinə yüksəldilməsi işlərinə bariz nümunədir. Ölkəmizdə və dünyada belə bir təcrübə vardır. Məsələn, Göyçayda "Nar", Türkiyənin Antalya şəhərində "Portağal", Adana şəhərində "Qarpız" festivalları keçirilir. Muxtar respublikada "Göycə" festivalının keçirilməsi dünya miqyasında yerli meyvə sortlarımızın təbliği üçün gələcəkdə "Ordubad əriyi", "Naxçıvan üzümü" festivallarının keçirilməsinə də zəmin yaradır.

**Varis QULİYEV**
*aqrar elmlər doktoru*
**Xaliq ABBASOV**
*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri*

# "Heydər Əliyev kuboku" uğrunda birinciliklər davam edir

*Naxçıvan Muxtar Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən "Heydər Əliyev kuboku" uğrunda süni divardırmanma idman növü üzrə muxtar respublika turniri keçirilib.*



Turnirin açılış mərasimində Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov, Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Mais Əliyev çıxış ediblər.

Sonra yarışa start verilib. 60-a yaxın idmançının iştirak etdiyi birinciliyi yekun nəticəsinə əsasən oğlanlar arasında qalib adını Onur Məmmədov qazanıb. Digər iki pillədə Abbas Seyidov və Behbud Məhərrəmov qərarlaşıblar.

Qızların mübarizəsində isə Nazlıcan Çakır bütün rəqiblərini qabaqlayıb. Fatimə Abbaslı ikinci, Nuray Paşayeva isə üçüncü olublar.

Komanda yarışında isə birinciliyi Naxçıvan Dövlət Texniki Kollecinin komandası əldə edib. Naxçıvan Tibb Kolleci və Naxçıvan Müəllimlər İnstitutunun komandaları isə ikinci və üçüncü yerlərə layiq görülüblər.

Qaliblərə diplom və hədiyyələr, komandalara isə kubok təqdim olunub.

* * *

*"Heydər Əliyev kuboku" uğrunda voleybol üzrə olimpiya sistemi ilə keçirilən muxtar respublika turnirinə start verilib.*

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən turnirdə "Naxçıvan", "Culfa", "Şərur", "Sədərək" komandaları ilə yanaşı, Azərbaycanın gənclərdən ibarət yığma komandası da mübarizə aparır.

Turnir iki gün davam edəcək.

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti*

**İtmişdir**

Səfərov Sahib Qənbər oğlunun adına olan 001267 nömrəli müharibə veteranı vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 368